Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə Qurandan surə öyrətdiyi kimi, əlim onun əlləri arasında olduğu halda mənə namazda deyilən təşəhhüdü öyrətdi

İbn Məsudun (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə Qurandan surə öyrətdiyi kimi, əlim onun əlləri arasında olduğu halda mənə namazda deyilən təşəhhüdü öyrətdi": "Əttəhiyyətu lilləhi vas-salavatu vat-tayyibətu. Əssələmu aleykə əyyuhən Nəbiyyu və rahmətullahi və bərakətuh. Əssələmu aleynə və alə ibədilləhissalihin, əşhədu əllə iləhə illaAllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluhu". Buxari və Muslimin rəvayət etdiyi başqa ləfzdə: "Həqiqətən Allah Salamdır, sizlərdən biriniz namazda oturanda desin: "Ət-təhiyyətu lilləhi vas-salavatu, vat-tayyibətu. Əssələmu aleykə eyyuhən-nəbiyyu və rahmətullahi va barakatuhu. Əssələmu aleynə va alə ibədilləhis-salihin". Bunu dedikdə, yer üzərində və səmada olan hər saleh qul (bundan) faydalanır. "Əşhədu əllə iləhə illaAllah və əşhədu ənnə Muhəmmədən abduhu və rəsuluhu". Sonra istədiyi duanı edə bilər.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ibn Məsudun (Allah ondan razı olsun) diqqətini və fikrini cəm etmək üçün onun əllərindən tutaraq Qurandan surə öyrətdiyi kimi namazda deyilən təşəhhüdü öyrədir. Bu da Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) təşəhhüdə söz və məna baxımından əhəmiyyət verməsini göstərir. Və dedi: "Əttəhiyyətu lilləhi": Bunlar - Allahın əzəmətinə dəlalət edən söz və fellərdir, bütün bunlar izzət və cəlal sahibi Allaha aiddir. "Əs-salavat": Bu - məlum olan və Uca Allah üçün qılınan vacib və nafilə namazlardır. "Ət-tayyibət": Bunlar kamilliyə dəlalət edən gözəl sözlər, fellər, vəsflərdir. Hamısı uca Allaha aiddir. "Əssələmu aleykə əyyuhən-nəbiyyu və rahmətullahi va barakatuhu": Ona hər bəladan, pislikdən salamatlıq və onun üçün hər xeyirin artıb çoxalması üçün (Allaha) dua etmək. " Əssələmu aleynə və alə ibədilləhis-salihin". Səmada və yerdə hər namaz qılan və hər saleh qula salamatlıq duası. "Əşhədu əllə iləhə illallah": Yəni qəti olaraq təsdiq edirəm ki, Allahdan başqa haqq məbud yoxdur. "Və ənnə Muhəmmədən abduhu və rəsuluhu": Muhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın qulu və son rəsulu olduğunu təsdiq edirəm. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz qılanı dualardan istədiyini seçməsinə təşviq edir.